*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 253-257* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.253*

**Sənətşünaslıq**

# Monumental heykəltəraşlıqda Füzuli obrazı

**Ərtegin Salamzadə**
AMEA-nın müxbir üzvü
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: ertegin.salamzade@mail.ru

**Annotasiya.** Məqalədə Azərbaycan monumental heykəltəraşlığında Füzulinin bədii obrazının təşəkkülü mərhələləri nəzərdən keçirilir. T.Məmmədov və Ö.Eldarov, M.Mirqasımov, F.Əbdürəhmanov, S.Süleymanova, F.Salayev, Q.Sücəddinov tərəfindən yaradılmış Füzuli abidələrinin ikonoqrafiya və kompozisiyası təhlil olunur. Füzulinin Türkiyədə ucaldılmış iki heykəlinə də diqqət verilir. Monumental heykəltəraşlıqda Füzulinin ikonoqrafik tipini formalaşdıran antropologiya, bədən quruluşunun əsas cizgiləri, habelə jest və atributları təyin edilir. Füzulinin bədii obrazının həlli Nizami və Nəsimi abidələrinin ikonoqrafiyası ilə müqayisə olunur.
**Açar sözlər:** Füzuli, monumental heykəltəraşlıq, abidə, obraz, ikonoqrafiya

**Məqalə tarixçəsi:** göndərilib – 13.05.2024; qəbul edilib – 24.05.2024

# Image of Fuzuli in monumental sculpture

**Artegin Salamzade**
Correspondent member of ANAS
Institute of Architecture and Art of ANAS
E-mail: ertegin.salamzade@mail.ru

**Abstract.** The article deals with the stages of formation of Fuzuli's artistic image in the monumental sculpture of Azerbaijan. The iconography and composition of Fizuli monuments created by T. Mammadov and O.Eldarov, M.Mirgasimov, F.Abdurahmanov, S.Suleymanova, F.Salayev, and G.Sujeddinov are analysed. Attention is paid to two Fuzuli monuments erected in Turkey. The main features of anthropology, physique, gestures, and attributes that formed the iconographic type of Fuzuli in monumental sculpture are determined. The solution of Fuzuli's artistic image is compared with the iconography of the sculptural monuments of Nizami and Nasimi.
**Keywords:** Fuzuli, monumental sculpture, monument, image, iconography

**Article history:** received – 13.05.2024; accepted − 24.05.2024

## Giriş / *Introduction*

Ədəbiyyat xadimlərinə abidələrin ucaldılması Azərbaycanın gündəlik mədəni təcrübəsinə yalnız XX əsrin ortalarına yaxın daxil olmuşdur. Bu ənənənin formalaşmasına Nizaminin 800 illik yubileyi və bir neçə il sonra, 1949-cu ildə onun heykəlinin qoyulması təkan vermişdir. Fuad Əbdürrəhmanovun yaratdığı Nizami heykəli müəyyən mənada möhtəşəm heykəl portretinin bu janrda olan sonrakı abidələri üçün bir nümunəyə çevrildi.

## Əsas hissə / *Main Part*

Məhəmməd Füzulinin heykəlinin yaradılma tarixçəsi Nizaminin yubileyinə hazırlıq işlərinə istinad edir. Hər iki halda abidənin ən yaxşı layihəsi üçün müsabiqə elan edilmişdi. Müsabiqəyə təqdim olunmuş əsərlər arasında Mirəli Mirqasımovun işi olan Füzuli heykəlinin eskizi də var idi. M.Mirqasımovun yaratdığı kompozisiya olduqca dinamik və hətta ekspressivdir. Bu dinamika təkcə şairin öz fiqurunu deyil, həm də onun əsərlərinin qəhrəmanlarının heykəltəraşlıq təsvirlərini xarakterizə edir ki, bunlar da abidəni postamentin perimetri boyunca çevrələyir. Bəlkə məhz bu səbəbdən M.Mirqasımovun kompozisiyası müsabiqənin arzuolunan, istəkli nümunəsinə çevrilə bilmədi.

Heykəltəraşlar – Tokay Məmmədov və Ömər Eldarovun birgə işi müsabiqənin qalibi oldu. Heykəl özü 1963-cü ildə Dram Teatrının qarşısında, Füzuli Meydanı adını almış meydanda qoyuldu. Həmin dövrdə meydan Bakının mühüm şəhərsalma qovşaqlarından biri idi və indi də bir çox hallarda öz əhəmiyyətini itirməyib. Geniş ətraf məkan həm o zaman, həm də indi istər piyadalara, istərsə də avtomobildə gedənlərə heykələ hərtərəfli baxış üçün yaxşı imkanlar yaradır. Tədqiqatçıların fikrinə görə, "şairin obrazının çoxcəhətli plastik xarakteristikası vasitəsilə yaradılan emosional təsirin dolğunluğu" [2, s.176], eləcə də tarazlaşdırılmış kompozisiya həlli bu heykəlin əsas cəhətidir.

Bəlkə də qəribə görünə bilər, lakin Azərbaycan sənətşünasları Füzuli heykəlinə – monumental heykəltəraşlıqda əsl mərhələ hadisəsinə çevrilən bu əsərə elə də çox diqqət verməyiblər. Rusiyalı tədqiqatçı Nikita Voronov özünün 1960-1980-ci illərdə sovet heykəltəraşlığına həsr olunmuş yığma xarakterli tədqiqat əsərində bu bədii fenomenə qat-qat artıq həssaslıqla yanaşmışdır. Və qeyd etmək lazımdır ki, N.Voronov obrazın emosional təsirini vurğulamaqla kifayətlənməmiş, abidənin təhlilinə hərtərəfli, kompleks müstəvidə yanaşmışdır. O, yazırdı: "Fiqur başdan-başa qüssə, hətta hüzn ifadə edir. Faciəvilik, ümidsizlik əhvali-ruhiyyəsi üzün mimikasından daha çox şairin pozasında əks olunur və bu, heykəl müəlliflərinin ən böyük uğurudur, çünki monumental heykəltəraşlıqda ümumi durumun detallardan daha çox, belə demək mümkünsə, böyük formada verilməsi xüsusilə vacibdir" [1, s.161]. Başqa sözlə, T.Məmmədov və Ö.Eldarov "müdrik insanın kədərli qəlbi" metaforasını plastik vasitələrlə parlaq şəkildə ifadə etmişlər.

Monumental heykəltəraşlıqda Füzuli obrazının həllinin əsas məsələsinə – ikonoqrafiya məsələsinə aydınlıq gətirmək üçün iki onillik əvvələ qayıtmaq lazım gəlir. Ədalət naminə qeyd etmək lazımdır ki, Azərbaycan heykəltəraşlığında Füzuli mövzusunda ilk cığır açan, görkəmli sənətkar Fuad Əbdürrəhmanov olmuşdur (1915-1971). O, 1930-cu illərdə Ədəbiyyat Muzeyinin lociyası üçün Azərbaycan ədəbiyyatı xadimlərinin heykəlləri üzərində işləyən heykəltəraşların cərgəsində idi. Tarixi personajların ikonoqrafiyası üzərində çalışan bir çox digər heykəltəraş və rəssamlar kimi, F.Əbdürrəhmanov da ciddi problemlə üzləşdi: "şairin etibarlı təsvirləri bizə gəlib çatmayıb" [2, s.45]. Tişə ustası Füzuli irsini ciddi surətdə öyrənməklə, onun daxili dünyasına dərindən nüfuz etməyə çalışmaqla bu boşluğu aradan qaldırmağa cəhd göstərdi. Nəticədə heykəltəraş Füzulinin bir qədər artıq təsir bağışlayan idealizə edilmiş obrazını yaratdı. Ehtimal etmək olar ki, məhz bu səbəbdən F.Əbdürrəhmanovun təfsirində Füzuli surəti monumental heykəltəraşlıqda ikonoqrafik obraza çevrilə bilmədi.

Müstəqillik illərində təsviri sənətdə Füzuli mövzusu yeni vüsət almışdır. Bu dövrdə Gəncədə, Qubada, Şirvanda Füzuliyə heykəllər qoyulmuşdur. Gəncədəki abidənin şairin 500 illiyində qoyulacağı güman edilirdi, lakin sonda həmin heykəl iki il sonra, 1996-cı ildə ucaldıldı. Gəncədəki heykəlin müəllifi Sevil Süleymanovadır. Heykəl Texniki Universitetin binasının yaxınlığında yerləşir və yaxşı baxış şəraitinə malikdir. Abidə uğurlu proporsiyaları (3 metrlik postament və 2,7 metrlik fiqur), tarazlaşdırılmış kompozisiyası və sakit plastik həlli ilə seçilir. S.Süleymanovanın işlədiyi Füzuli təsviri əllərin və başın başqa durumda olmasına baxmayaraq T.Məmmədov və Ö.Eldarovun formalaşdırdıqları ikonoqrafik obraza uyğundur.

Lakin budur, Azərbaycanın Xalq rəssamı Fuad Salayev Füzulinin bədii obrazını tamamilə başqa cür həll etmişdir. Əvvəla, o, möhtəşəm heykəl ideyasından imtina edərək şairin büstünü yaratmışdır. İkincisi, o, sözügedən tarixi-mədəni mövzunun pafosunu azaldaraq, Füzuli obrazını XXI əsr tamaşaçısının qavrama xüsusiyyətlərinə maksimum yaxınlaşdırmışdır. Demək lazımdır ki, sinə boyu təsvir, obrazın plastik həlli üçün müəllifə adətən o qədər də çox imkan saxlamır. Lakin F.Salayev bu vəziyyətdən məharətlə çıxa bildi və, etiraf etmək lazımdır ki, əsərə müasirliklə səsləşən elementlər daxil etməklə Füzuli ikonoqrafiyasını zənginləşdirdi. Sol əlin yaxalığı qaldıran, yaxud düzəldən jesti heykəltəraşın gözəl tapıntısıdır. Bunun sayəsində monumental əsər həyati məna kəsb etmişdir ki, bu da F.Salayevin yaradıcılığına ümumən xas olan xüsusiyyətdir.

Nəzərdən keçirdiyimiz heykəl 2022-ci ildə Şirvan şəhərində qoyulmuşdur.

Füzuli heykəlləri Azərbaycanın hüdudlarından kənarda da, ilk növbədə Türkiyədə ucaldılır. 1992-ci ildən Türkiyədə yaşamış və işləmiş Qorxmaz Sücəddinov (1932-2010) Kayseri universitetinin ərazisində yerləşən Füzuli heykəlini yaratmışdır. Bu iş ağacdan, müəllifin çox sevdiyi materialdan düzəldilmişdir. Müəllif Füzuli obrazını o qədər də hündür olmayan postament üzərində, qurşaqdan yuxarı formada təsvir etmişdir. O, şairin portret cizgilərinin və geyiminin əks etdirilməsində artıq məlum ikonoqrafik standarta riayət etmişdir. Sağ əlin qurşaq səviyyəsində tutduğu kitab ikonoqrafiyanı zənginləşdirən yeni elementdir. Kitabın plastik həcmi əks tərəfdən aşağı sallanan geyimin ağır büküşləri ilə saxlanılır və bunun sayəsində postament vizual olaraq demək olar ki, şairin fiqurunun davamı kimi qavranılır.

Türkiyə ərazisində Füzulinin daha bir heykəli vardır, İstanbulda yerləşir. Onu da vurğulamaq lazımdır ki, bu heykəl Azərbaycan heykəltəraşlarının yaratdıqları heç bir abidəyə bənzəmir. Hər şey – obrazın ikonoqrafiyası, plastik şərh, atributların təfsiri, kompozisiya, – tamamilə fərqlidir. Şairin təsviri həm qədd-qamətinə, həm də antropologiyasına görə Avropa tipini deyil, daha çox Asiya tipini əks etdirir. Füzulinin fiquru tamamilə başqa energetika, emosional məzmun daşıyır. Mütəfəkkirin baxışı aşağı, üz tərəfi aşağıya olan açılmış kitabın üstünə qoyduğu öz sol əlinə doğru yönəlib.

Bu gün, şair və mütəfəkkir Məhəmməd Füzulinin 530 illik yubileyini qeyd etdiyimiz zaman, kədərli şeylərdən danışmaq istəməzdik. Lakin hər halda lazım gələcək. Buna inanmaq çətindir, amma məhz Füzuli heykəlləri müxtəlif vaxtlarda vandalizm aktlarına məruz qalıb. Hələ 1970-ci ildə Füzuli şəhərində dahi söz ustadının şərəfinə abidə ucaldılmışdı. Lakin 1993-cü ildə erməni işğalı zamanı abidə vəhşicəsinə məhv edilmişdi. Füzulinin daşda təcəssüm olunmuş xatirəsinə təcavüz sülh zamanında da, hərbi əməliyyatların getmədiyi yerlərdə də özünü göstərir. 2020-ci ilin ortalarında Təbrizin Mənzəriyyə meydanında qoyulmuş Füzuli heykəli birdən-birə yoxa çıxdı. Bir həftədən sonra şəhər hakimiyyətinin rəsmi nümayəndəsi açıqlama verdi ki, təmir işlərinin başa çatmasından sonra heykəl öz yerinə qaytarılacaq. Heykəli qaytardılar. Üç il keçdi. Və budur, bir müddət öncə mətbuatda belə bir məlumat yayılıb ki, heykəl naməlum şəxslər tərəfindən vandalizmə məruz qalıb. Deməli, "Düşmənlərimiz təkcə insanları deyil, heykəllərimizi də güllələyir" [3] – deyə məlumat verən jurnalist ilə razılaşmaq qalır.

**Nəticə / *Conclusion***

Nəticələri yekunlaşdıraraq monumental heykəltəraşlıqda Füzuli obrazının ikonoqrafiyasının əsas cəhətlərini diqqətə çatdıraq. Bu, yaşı ötmüş, Avropa antropoloji tipində olan, orta tipli bədən quruluşuna malik bir adamdır; o, kədərli üz ifadəsinə malik tərzdə təsvir olunur, qüssəli emosiyalar xüsusi jestlər, əllərin vəziyyəti ilə müəyyən edilir. Şairin fiquru əksər hallarda boyaboy, uzun geyimdə təsvir olunur, bir neçə kompozisiyanın yeganə əlavə atributu yarı açılmış kitabdan ibarətdir.

Monumental heykəltəraşlıqda Füzuli obrazının həllini Nizami və Nəsimi heykəllərinin ikonoqrafiyası ilə müqayisə edərək ən azı üç prinsipial fərqi qeyd etmək olar. Həm Nizami, həm də Nəsimi, Füzuli kimi o qədər də yaşlı təsvir edilmirlər. Məlumdur ki, Nizami (1141-1209) 68 yaşında, Füzuli (1494-1556) isə 62 yaşında vəfat etmişlər. Obrazların emosional məzmunu baxımından da maraqlı analogiyalar aparmaq olar. Nizaminin, yaxud Nəsiminin heç bir heykəli Füzulinin əksər heykəllərində olduğu qədər bədbin, hətta faciəvi yükə malik deyil. Bununla yanaşı, yaxşı məlumdur ki, Füzulinin yox, Nəsiminin taleyi faciəli olmuşdur. Və nəhayət, üçüncü fərq. Nizaminin heykəllərində kitab – 1946-cı ildə Gəncədə qoyulmuş, müəllifi Fuad Əbdürrəhmanov olan heykəli nəzərə almasaq, ikonoqrafiyanın atributlarından biri kimi heç də həmişə çıxış etmir. Bunu Nəsimi abidələrinə də aid etmək olar, baxmayaraq ki, bəzi hallarda biz onun əlində kağız bükməsi görürük, digər hallarda isə kompozisiyaya rəhil – kitab qoymaq üçün altlıq daxil edilir. Bunun əksinə, Füzuli üçün kitab – ikonoqrafiyanın praktik olaraq vacib elementidir, o, böyük mütəfəkkirin bizə məlum olan səkkiz heykəlinin ikonoqrafiyasında vardır. Belə bir nəticə çıxarmaq olar ki, Fizuli ikonoqrafiyasının mənbəyi onun həyat durumu ilə deyil, yaradıcılığının məzmunu ilə bağlıdır.

**Ədəbiyyat / *References***

1. Воронов, Н.В. Советская монументальная скульптура. 1960-1980. – М., 1984.
2. Искусство советского Азербайджана. Живопись. Графика. Скульптура. – М., 1970.
3. Gəncəli, R. Təbrizdə Füzulinin heykəlinə hücum çəkənlər kimlərdir? https://xalqqazeti.az/az/sosial-heyat/124829

## Образ Физули в монументальной скульптуре

**Эртегин Саламзаде**
Член-корреспондент НАНА
Институт архитектуры и искусства НАНА
E-mail: ertegin.salamzade@mail.ru

**Резюме.** В статье рассматриваются этапы становления художественного образа Физули в монументальной скульптуре Азербайджана. Анализируются иконография и композиция памятников Физули, созданных Т.Мамедовым и О.Эльдаровым, М.Миркасимовым, Ф.Абдурахмановым, С.Сулеймановой, Ф.Салаевым, Г.Суджеддиновым. Уделяется внимание двум монументам Физули, установленным в Турции. Определяются основные черты антропологии, телосложения, а также жесты и атрибуты, сформировавшие иконографический тип Физули в монументальной скульптуре. Решение художественного образа Физули сравнивается с иконографией скульптурных памятников Низами и Насими.

**Ключевые слова:** Физули, монументальная скульптура, памятник, образ, иконография.

**ŞƏKİLLƏR**



1. Tokay Məmmədov, Ömər Eldarov
Füzuli heykəli. Bakı. 1963.






2. Sevil Süleymanova
Füzuli heykəli. Gəncə. 1996.

3. Fuad Salayev
Füzuli heykəli. Şirvan. 2022.